

***Ramiz MÖVSÜM***

# Sən işıq bəxş edirsən

***Akademik Zərifə Əliyeva adına Mərkəzi Oftalmologiya İnstitutunun göz cərrahı Rəvanə xanım Həsənovaya***

El qızı, sənətin dünyada təkdir,
Göz həkimi olmaq gör, nə deməkdir,
Qaranlıq gözlərə nur bəxş etməkdir;
Ucadan ucasan, Rəvanə xanım!

Sözsüz, kökdən gəlir ədəb-ərkanın,
Hər kəsə isnişib-qaynayır qanın,
Zəhmətlə yoğrulur ötən hər anın,
İşin deyil asan, Rəvanə xanım.

Doğmaların sənə uğur diləyib,
Yaradan da səni nura bələyib,
Sənə ağ günləri qismət eləyib,
Taleini yazan, Rəvanə xanım.

Nə qədər gözləri zülmət qəhr edir,
İşıq paylayırsan onlara bir-bir,
Sanıram ürəyin işıq nəhridir,
Gün tək nur saçasan, Rəvanə xanım.

Müdhiş qaranlığın yolunu kəsən,
Yurdumun mərd qızı, sənə min əhsən!
Arzumdur: həyatda büdrəməyəsən,
Yolun olsun rəvan, Rəvanə xanım.

İstərəm həmişə öndə gedəsən,
Çarəsiz dərdlərə çarə edəsən,
Köməyə çatasan, dada yetəsən,
Eldə hörmət qazan, Rəvanə xanım.

Vardır biliyin də, cəsarətin də,
Gücünü həmişə sına çətində,
Gün o gün olsun ki, öz sənətində
Yeni iz açasan, Rəvanə xanım.

İncə əməliyyat neçə sirr gizlər,
Zərgər barmaqların işini düzlər...
Əlini axtarar açılan gözlər,
Bunu təbii san, Rəvanə xanım,

Xəstə üçün çatdı zülmətin sonu;
Əllərini öpsə, qınama onu,
Dərk etdi işığın nə olduğunu,
Yaddan çıxmaz bu an, Rəvanə xanım.

***15 may, 2022.***